**Yeganə BAYRAMLI**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu
"Muğamşünaslıq" şöbəsinin böyük elmi işçisi
Ünvan: Bakı, H. Cavid pr., 31
Email: yegana-bayramli@mail.ru

# AZƏRBAYCAN KAMANÇA İFAÇILIĞINDA USTAD SƏNƏTKAR HABİL ƏLİYEVİN ROLUNA DAİR

***Xülasə:*** *Təqdim olunan məqalədə Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" və "İstiqlal" ordenli ustad sənətkar, mahir kaman ifaçısı Habil Əliyevin özünəməxsus ifaçılıq ənənəsi tədqiq olunmuşdur. Eyni zamanda, ustadın ifa etdiyi kamança alətinin özəlliyi və onun muğam ifaçılığında əhəmiyyəti işıqlandırılmışdır.*

***Açar sözlər:*** *Habil Əliyev, muğam, muğam ifaçılıq ənənəsi, kamança, simli musiqi aləti*

*"Bizim xalqımız kamançanı həmişə yüksək qiymətləndiribdir.*
*Ulu babalarımızdan qalan musiqi alətimiz tar və kamançadır.*
*Başqa sənətlərə çox adamlar gedə bilərlər.*
*Hər adam mühəndis də, həkim də, müəllim də,*
*tacir də ola bilər amma tar,kamança çala bilməz.*
*Hər adam kamança çala bilər,*
*ancaq sənin kimi çala bilməz. Ona görə də sən bu sənəti seçməyinlə*
*fəxr edə bilərsən. Biz də sənin kimi kamançaçalan Habillə fəxr edirik".*

**Heydər Əliyev**
Azərbaycan xalqının ümummilli lideri

Muğam fenomeni qeyri-maddi və mədəni irs kimi tarixən tədqiqatçıların maraq obyektinə çevrilən aktual mövzulardan biridir. Azərbaycan muğamının dünya arenasında təbliği, muğam ifaçılarının peşəkar fəaliyyəti sayəsində həyata keçirilir. Məhz bu ecazkar sənət növü Şərq və Qərb sivilizasiyaları anlamının yaxınlaşmasını və vəhdətini təmin etmək baxımından əvəzsiz mənbədir. İstedadlı ifaçıların Avropada, Amerikada yüksək məharətlə nümayiş etdirdikləri muğam, sadəcə istedadlı bir xalqın ənənələrinə və düşüncə tərzinə bağlı ekzotika kimi yox, bəşəri musiqi – dünya musiqisi kimi dəyərləndirilir. Muğam fenomeni ümumbəşəri mədəniyyətin universal dili olaraq, sərhədlər tanımayan, fərqli musiqi duyumu və düşüncə tərzi olan xalqların genetik yaddaşında dərin izlər əks etdirmək qabiliyyətinə malikdir.

Təbii ki, bu da muğam ifaçılarının daxilindən gələn prosesi aşkarlamaq səyi sayəsində həyata keçirilir. Çünki mövcud sənət növü sadəcə səsin içində dinləyiciyə təqdim olunmur, eyni zamanda, tembr boyaları vasitəsilə, alətin dili ilə ifa olunaraq prosesin gedişatını dinləyiciyə ötürərək onu maarifləndirir. Azərbaycan muğamı dinindən, irqindən, milliyyətindən asılı olmayaraq, hər bir dinləyici ilə məhz onun öz dilində danışmağı bacaran, onu düşündürən fenomendir.

Azərbaycan muğamlarını nəsildən-nəslə varislik yolu ilə ənənəvi şəkildə ötürən sazəndələr vardır ki, onlar hər biri bu şərəfli yolda öz dəst-xətti, ifaçılıq prinsipi ilə seçilən musiqiçilərdən olmuşlar. Belə musiqiçilərimizdən biri də Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" və "İstiqlal" ordenli ustad sənətkar, mahir kaman ifaçısı Habil Əliyevdir.

H.Əliyev 28 may 1927-ci ildə Ağdaş rayonunun Üçqovaq kəndində dünyaya göz açmışdır. Ustadın xatirələrindən bəlli olduğu kimi sənətə gəlməyində iki insanın əvəzsiz xidməti olmuşdur. Bunlardan biri Üzeyir Hacıbəylinin yaxın qohumu olan Əhməd Ağdamski, digəri isə anasıdır. Ə.Ağdamsikinin kiçik yaşlı Habilgilin evində yaşaması, onun həyat yolunun müəyyənləşməsində müstəsna rol oynamışdır. Belə ki, sənət ocağına yığışan musiqiçilər, muğamları, təsnifləri müzakirə edər, tarda, kamançada ifa edərək "ev konsertləri" təşkil edərdilər. Keçirilən bu məclislər hələ kiçik ikən Habildə musiqiyə olan maraq və diqqətin başlanğıcı olmuşdur. 6 yaşlı uşaq saatlarla Əhməd Ağdamskinin tarda olan ifasına qulaq asaraq, ondan mənəvi qida alırdı. Bu maraqdan irəli gələrək, Anası Nisəxanım 6 yaşlı Habili, dayısı oğlu, eyni zamanda, məktəbin direktoru olan Bilal Muradovun yanına aparır. Lakin, yaşının az olmasından dolayı onu musiqi məktəbinə qəbul etmirlər. Nəhayət bu, bir il sonra baş verir. Balaca Habilin tar alətinə olan marağı öncəliklə onun tar sinfində, daha sonra isə bu aləti sinəsində tuta bilmədiyi üçün kamança simli musiqi alətində ifa etməsi ilə nəticələnir.

Uşaqlıq illəri Böyük Vətən müharibəsinin (1941-45-ci İllər) qızğın vaxtına düşdüyündən sənətkar çox keşməkeşli və əziyyətli bir dönəmdə yaşamışdır. Belə ki, müharibədən qara kağızı gələn atası və böyük qardaşının həlak olma xəbəri ailəni bərk sarsıtmışdı.. "Onda anam ağlayıb şivən qoparırdı. Çox qəribə idi. Onda mən ağlaya bilmirdim. Ancaq kaman (kamança - Y.B.) çalırdım. Sanki dərdimi kamana deyirdim. Elə bil bütün anaların, bacıların dərdi, kədəri mənim kamançamın simlərinə hopmuşdu. Mənə elə gəlir ki, indi də kamanda o qəmli sədalar, o fəryadlar qalmaqdadır..." [9]. Beləcə balaca Habil müharibənin ağrı-acısına məhəl qoymayaraq saatlarla eyvanlarında əyləşib öz kamança alətində ifa edərmiş. Eyni zamanda təhsilini yarımçıq qoyub erkən yaşlarından el şənliklərində kamança ifa etməyə başlamışdı ki, ailəsinin maddi tələbatını qarşılaya bilsin.

Sənətə kiçik yaşlarından başlayan ustad, öncəliklə el şənliklərində, daha sonra dostunun ("uşaqlıq dostum Fikrət olmasaydı... bəlkə Habil Kaman da olmazdı") [6, s. 8] təkidi ilə Bakıya gəlib 1952-ci ildə Asəf Zeynallı adına musiqi məktəbinə (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci -

Y.B.) uğurla qəbul olur. Burada o, kamança alətinin sirlərini dərindən mənimsəyir. Tezliklə H.Əliyev 1953-cü ildə tarzən Hacı Məmmədovun dəvəti ilə Filarmoniyaya gəlir. Direktor Şəmsi Bədəlbəyli, bədii rəhbər Soltan Hacıbəyov, Niyazi, Səid Rüstəmov onun ifasını dinləyirlər. Bir neçə gündən sonra onu Filarmoniyaya müşayiətçi kimi işə qəbul edirlər. Filarmoniyaya gəlişi sənətkarın peşəkar səhnə fəaliyyətinin başlanğıcı olmaqla yanaşı, səhnədə olan ustadların- Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov, Şövkət Ələkbərova, Həqiqət Rzayeva, Sara Qədimova və bir çox başqa sənətkarları müşayiət etməklə, onların yaradıcılığından bəhrələnərək ifasını daha da təkmilləşdirilməsi ilə nəticələndi.



***Azərbaycan Respublikasının xalq artistləri xanəndə Yaqub Məmmədov, tarzən Həbib Bayramov, kamança ifaçısı Habil Əliyev (Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin foto arxivi)***

Təhsilini bitirdikdən sonra gənc ifaçı tezliklə, yəni 1955-ci ildən Filarmoniyada solist ştatına keçirilir. Bundan sonra onun solo səhnə fəaliyyətində canlanma baş verir. Özünəməxsus ifası ilə dinləyici kütləsinin ürəyini fəth edən Habil durmadan çalışır, ifa texnikasını təkmilləşdirərək kamançada yeni xallar, çalarlar üzərində işləyir, bilik və bacarığını artırmağa başlayır. 1961-ci ildə Azərbaycan Dövlət Televiziyasında ustadın ilk solo konserti oldu. "Segah" muğamının yeni çalarda ifası dinləyici kütləsi, eləcə də, musiqi ifaçıları tərəfindən rəğbətlə qarşılandı. Təsadüfi deyil ki, "Segah" muğamını bir çox ifaçılar səsləndirmişlər. Lakin, ustadın ifa etdiyi "Segah" muğamında başqa çalarlar var. O, "Segah" muğamına yeni nəfəs verərək, öz ürəyini, ifa improvizasiyasını, "melizm", "trel", "qlissando" kimi melodik boyalarını əlavə etməklə Azərbaycan muğam ifaçılıq sənətində "Habil Segaha" möhürünü vurmuşdur. Ustad bu müvəffəqiyyətdən ruhlanaraq, durmadan öz üzərində çalışır, yeni-yeni axtarışlarda olaraq, bir çox muğamlarımıza kamança alətində yeni həyat bəxş edirdi. Ustada sual olunduqda ki, "Habil Segahını necə oldu çal-

dınız ? Bu, müəyyən hadisə ilə bağlıdırmı?" - o, belə cavab vermişdi: "Bakıda yeni mənzil almışdım. Filarmoniyada konsertim var idi. Sevincim o qədər idi ki... Bu sevinc qanadlarında da kaman (kamança - Y.B.) simlərinin yanğılı harayı ilə xəyalən atamı, qardaşlarımı axtarırdım. İllərin təzadlı bənd-bərəsindən, müharibənin alovlarından keçən axtarış uzandıqca çaldığım "Segah" da uzanır, uzanır, yanıqlı göynərtili notlar nalə çəkirdi. Bax, "Habil Segahı" belə yarandı" [6, s. 27]. H.Əliyevin müxtəlif vaxtlarda ifa etdiyi "Segah" muğamını müqayisə etsək [10; 11; 12; 13] hər ifada təkrarsız, misilsiz çalğı, yeni tembr boyaları, yeni çalarlar müşahidə edərik. Bu da təbii ki, ustadın keçdiyi yaradıcılıq yolunun nəticəsidir.

"Segah", "Bayatı Qacar", "Rahab", "Bayatı Şiraz" və digər muğamlar sənətkarın idrakından gələn biliyin canlandırılması üçün, təşəkkül hadisəsini yaşayaraq, yaradıcılıq prosesi keçməklə, hər bir mərhələni ruhən yaşayaraq mənəvi cəhətdən ucalaraq, nurlanma zirvəsini fəth etdiyi şah əsərlər silsiləsindədir.

Habil Əliyev sələfləri olan ustad sənətkarların ifa üslubuna hörmətlə yanaşaraq, ənənəyə sadiq qalmaqla bərabər, öz fərdi yaradıcılıq yolunu cızan, özünəməxsus ifa üslubuna malik musiqiçi idi. Bu özünəməxsusluq həm ustadın ifa etdiyi kamança musiqi alətində, həm də onun canlandırdığı (səsləndirdiyi) musiqidə öz əksini tapmışdır. Muğam ifaçılığında öz dəst-xətti, ifa üslubu olan ustad sənətkar, Azərbaycan musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli töhfələr vermişdir. Belə ki, sənətkar Azərbaycan simli yaylı musiqi aləti olan kamançanın səslənməsinə yeni xallar və rənglər qatmış, eyni zamanda, onun konstruktiv quruluşunda dəyişikliklər edərək ifa imkanlarını genişləndirmişdir. Belə ki, ustadın kamança musiqi alətində etdiyi rekonstruksiya işi onun ifasının özəlliyinə də təsir etmişdir.

Muğam ifaçılığında ustad sənətkar daxilindən gələn, onun idrak təfəkküründən süzülən səsləri əldə etmək üçün alətdə təkmilləşmə işi aparmaq məcburiyyətində qalır. Belə ki, xalq artisti H.Əliyev öz alətində daxilindən, ruhi aləmindən gələn səsləri əldə etmək üçün mövcud olan alətin qolunu qısaltmışdır. Standart uzunluğu 29 sm olan kamança yaylı musiqi alətinin qolunu iki sm qısaldaraq 27 sm etmişdir.



***Habil Əliyevin rekonstruksiya işi apardığı kamança musiqi aləti. Foto müəllifindir***

Məlum olduğu kimi, kamança simli yaylı musiqi alətində pərdələr yoxdur. Bu baxımdan rekonstruksiya əsasında barmaqlar arasındakı məsafələr kiçilmiş, eyni zamanda, yeni mükəmməl səs effekti yaranmışdır [1, s. 62]. Ehtimal edirik ki, ustadın mövcud rekonstruksiya işi muğam ifaçılığında itirilmiş səslərin bərpasına zəmin yaradır. Mövcud olan rekonstruksiya işini Azərbaycan Respublikasının xalq artisti Elşən Mansurov, Azərbaycan respublikasının əməkdar artisti Elnur Əhmədov kimi muğam ifaçılarımız öz alətlərində etmişlər.

Ustad xatirələrinin birində "Mənim kamançama erməni ustaları xəyanət elədi" deyə qeyd etdi. "Onlara inandım, axı bizim millət safdır. Birinə etibar elədim, kamanı verdim ki, üzünün dərisini dəyişdirib gətirsin (Ehtimal edirik ki, ustad müsahibədə kamança simli musiqi alətindən bəhs etmişdir, çünki kamançanın çanağının üzərinə dəri çəkilir. Kamandan isə kamançanı səsləndirmək üçün istifadə olunur.: Y.B.). İçini açıb çanağını yonmuşdular. Soruşanda dedilər ki, səsi yaxşı çıxsın deyə belə etmişik. Amma mən çala bilməyim deyə qəsdən eləmişdilər. Rəhmətlik Əhsən müəllimlə (Əhsən Dadaşov.: Y.B.) Hindistanda bir yerdə idik. Möhkəm ağladım. O dedi, darıxma, gedib birini də düzəltdirərsən. Dedim, ağac çoxdur, kamança da çoxdur, amma mən o səsi itirdim. O mənim ürəyimin səsi idi" [9]. H.Əliyev ifa etdiyi kamança musiqi alətini məhz öz ürəyinin səsini dilləndirirdi.

*Kamanə kamanda toxunan zaman,*
*Səslər dama-dama coşdu, çağladı.*
*Yazıq bir qəlbin ah-amanından*
*Bəlkə göy kişnədi, bulud ağladı...*
*Bəxtiyar Vahabzadə [5, s. 10].*

Özünəməxsus ifa prinsipi ilə seçilən Habil Əliyevin yaradıcılıq yolu tezliklə xalq şairi Bəxtiyar Vahabzadə ilə kəsişir. Sonradan bu kəsişmə onların birgə fəaliyyəti möhkəm bağlara söykənərək əsil dostluğa çevrilir. "İlk məhəbbət", "Güləsən gərək" B.Vahabzadənin sözlərinə bəstələnmiş mahnılar silsiləsindəndir. Ustadın ifasından ilhamlanan xalq şairi Bəxtiyar Vahabzadə: "Habil əslində xalq musiqi yaradıcılığının ifaçısıdır. Lakin onun ifasında "Habil çaları" da var. Bizi valeh edən də budur. Çünki biz bu çalarları Habilə qədər heç bir kaman ifasında görməmişik. O, sadəcə çalmır, yaradır. Bəziləri kimi yaradıcılıqla axtarışlarını eninə-uzununa yox, dərin qatlara tuşlayan Habil düşündüyünə görə bizi də düşündürməyi bacarır. Düşündürməyən sənət sənət deyil. Buna görə də biz Habilə çalğıçı, yaxud ifaçı deyil, sənətkar deyirik" [7]. Sənətkarın ifasının özünəməxsusluğunu ifadə edən şair "Habilin kamana gətirdiyi səs neylə kaman arasında özünəməxsus bir səsdir. Bəlkə də bu səs insan səsinə bir qədər yaxındır. Bu səsdə bəzən vahimə, bəzən inilti, bəzən də cəngavərlik duyuram. Biz Habilin ifasından sonra kamanın (kamançanın Y.B.) nə qədər böyük imkanlara malik olduğunu görürük" [5, s. 95].



H.Əliyevin ifası təfəkkürün məhsulu olan sözlərin səslərdəki təzahürüdür. Ustad ifa edir, öz ifası ilə düşündürür, bu düşüncə axınının ardınca gedən dinləyici baş verən hadisəni öz iç dünyasında canlandırır. İfaçı yaradıcılıq prosesi zamanı musiqinin ahəngdarlığına varmaqla, prosesə nüfuz olur. Bu zaman tarıma çəkilmiş simlərdə gərginlik artır. İfaçı vəhy əldə etmək üçün haldan-hala düşür nəticədə yeni ideyanın həyata gəlməsi anını dinləyici ilə birgə yaşayır. Əldə etdiyi biliyi canlı yolla dinləyiciyə transformasiya edir.

H.Əliyev ənənə ilə müasirliyin kəsişməsində yaşayıb yaradan sənətkar idi. Sözün əsil mənasında özünəməxsus ifaçılığı ilə seçilən ustad sənətkar öz kamanı ilə əsrlərin ecazkarlığını, sirli sakral dünyasını aşkarlamışdır. Muğamın düzgün səsləndi-rilməsi ifaçının şəxsi yaradıcılığından və onun ifaçılıq fantaziyasının zəngin olmasından bilavasitə asılıdır. Muğam fenomeni zəngin bilik mənbəyidir. Bu baxımdan onda mövcud olan biliyin dinləyiciyə ötürülməsi üçün ifaçıdan yüksək fitri istedad və xüsusi improvizə tələb olunur. "...İmprovizə öz yaradıcılıq fanta-ziyasını "ixtiraçılıq" əzmini nümayiş etdirmək üçün muğam ifa edən xanəndə və sazanda-ifaçı qarşısında geniş imkanlar açır" [8, s . 56].

H.Əliyev ifasına "vibrasiya", "glissando", "pizzicato", "forşlaq", "mordent", "trel" kimi müxtəlif melizmlərdən istifadə etməklə, eyni zamanda, bu xırda melizmlərə öz böyük ürəyini qatmaqla mükəmməl sənət əsəri yaratmışdır. Ustad çaldıqca hər ifasında yeni vəcd, hər vəcdə yeni nəfəs, hər nəfəsdə yeni aləm, yeni dünyanı kəşf edir. Öz dünyasından gələn zəngin fikirləri isə bu alət vasitəsilə dinləyici kütləsinə barmaqları vasitəsilə ötürür. Kamança aləti bir növ burada əldə olunan zəngin informasiyanın ötürülməsi üçün rabitə rolunu icra edən cihaz funksiyasını daşıyır. Sənətkarın muğam ifasında, yaradıcılıq prosesinə qovuşmaqla həmin anda təxəyyülündən əldə olunan improvizasiyaların yeni variantları əmələ gəlir.

Mahir kamança ifaçısı ənənəyə sadiq qalaraq muğam dəstgahlarımızı ənənə konteksti çərçivəsində ifasına, eyni zamanda, müasirliyi, yeniliyi özündə ehtiva edən ("Cücələrim"in özünəməxsus ifası. Y.B) özünün bəstələdiyi bir sıra mahnıları ilə ifaçılığını davam etdirirdi. "Ənənəni məhsuldar zəmin, onun özünəməxsus yasaqlarını isə yol göstəriciləri kimi qavrayan, duyan və öz peşəsini bu yönümdə təqdim edən sənətkar mütləq ənənəni zənginləşdirir" [6, s. 20]. H.Əliyev məhz ənənənin qanunlarını dərk edib onu daha da zənginləşdirən ifaçılardan idi. Onun ifaçılıq ənənələrinin səyi sayəsində kamança aləti xalqımıza yenidən ərməğan oldu.

Akademik Bəkir Nəbiyev Habil sənətini, onun ifaçılıq ənənələrini dəyərləndirəndə "Mən hərdən düşünürəm ki, görəsən, Habilin sənət uğurlarının onun po-

pulyarlığının sirri nədədir. Bu qərara gəlirəm ki, o öz ifaçılıq fəaliyyətinin ən barlı-bəhrəli, ən dolğun çağlarında kamançasını adətkarda olduğumuz mənada çalmaqla kifayətlənməmiş, bu unikal aləti öz sənət möcüzələri ilə canlandırıb dilləndirmiş, onu insan kimi danışdırmağa müvəffəq olmuşdur" [5, s. 92].

Muğamın zənginliyini, onun kamil bilik sahəsi kimi ahəngdarlığını duyan ifaçı ona donmuş bir abidə kimi deyil, öz təfəkküründən gələn boyalarla rəng qataraq ənənə sistemi çərçivəsində yenilik gətirmişdir. İfaçının idrak təxəyyülündən keçən məna çalarları, onun ruhi aləmlə əldə etdiyi bilik barmaqlarına hoparaq, vəhdətdə olduğu kamança aləti vasitəsilə dinləyiciyə ötürülür. Sənətkar öz ifaçılığına aydınlıq gətirərək "Mən həmişə, hər yerdə çalışmışam ki, dinləyicilər məni yalnız çalğıçı kimi dinləməsinlər. Muğamın xarakterinə uyğun hekayət söyləyən, qəlbi dolu aşiq, ürəyini açan hüznlü adam kimi qulaq assınlar. Gözümü yumum, eşidib qulaq asanlara asta-asta həzin nəğmə söyləyim" [6, s. 27]. Sənətkarın ifası ruhi proses vasitəsilə insanı başqa aləmə qovuşdurur. Belə ki, zahiri baxışdan sadə görünsə də daxili zənginliyi ilə əks-səda yaradan sənətkar öz ifası ilə, həmçinin aləti ilə zamanın keçmişindən obrazlı şəkildə xəbər verir.

Akademik Vasim Məmmədəliyev Habil ifaçılığını aşağıdakı təsnifata uyğun qruplaşdırmışdır:

1.Habil Əliyev kamançaya Azərbaycan ruhu, Azərbaycan nəfəsi, Azərbaycan rayihəsi gətirib, onu bizimkiləşdirdi. Başqa sözlə desək Habil Əliyev kamançanı "texnar" erməni ifaçılarının əlindən alıb yenidən millətimizə qaytardı.

2. Habil Əliyev kamançanın səs palitrasını, texniki imkanlarını genişləndirib, ona özünəməxsus yeni tembr, səslənmə və çalarlar gətirdi.

3. Habil Əliyev kamança alətini müşayiətçi alətdən qüdrətli solo alətinə çevirdi. Habil kamançadan istədiyi səsi, istədiyi effekti ala bilir. Onun kamançasının səsi tamam başqadır" [5, s. 106].

Bu da təsadüfi deyil ki, Habil sənətindən, onun alətinin ahəngdar tembrindən mənəvi qida alan görkəmli Azərbaycan Bəstəkarlar İttifaqının sədri, UNESCO – nun "Sülh naminə İncəsənət xadimi" Azərbaycan Respublikasının xalq artisti, Şöhrət ordenli, professor Firəngiz Əlizadə "Habilsayağı" pyesini bəstələmişdir. Əsər Şərq və Qərb mədəniyyət konteksti çərçivəsində yaranmışdır. Ustad: "Habilsayağı" - xüsusi musiqidir. Bu - Azərbaycan bəstəkarı tərəfindən yaradılmış müasir klassik musiqidir. Onda mənim üslubum çox ilhamla təcəssüm olunmuşdur, eyni zamanda, mənim ruhum saxlanılmışdır. Firəngiz xanım mənim üslubumu təhrif etməmiş, mənim musiqi dilimin özünəməxsusluğunu pozmamışdır. O, muğamın dilini düzgün ifadə etmiş, əhəmiyyətli dərəcədə zənginləşdirmiş, öz fantaziyası ilə dolğunlaşdırmışdır..." [4, s. 63].

Sənətkarın ifasında muğam ifaçılığına xas olan nadir improvizasiya bacarığı, misilsiz ifaçılıq texnikası, Şərq mədəniyyət paradiqmasına məxsus incə musiqi duyumu, gözəl zövq və dəqiq ölçü hissi vardır. Bu da danılmaz həqiqətdir ki, Şərq mədəniyyəti daim zəka və biliyin mənbəyi hesab olunaraq, özü-özünü dərk etməyə,

daxili etiqad zənginliyinə malik olub, intuitivizmə və irrasionalizmə istiqamətləndirən bir bilik sahəsi olmuşdur [1, s. 11]. Məhz Habil ifasında biz bu intuitivliyi, Şərq mədəniyyətinə məxsus olan zəka və biliyi duyuruq. O, batindən gələn yüksək məna çalarlarını öz kamança alətində məharətlə ifa edərək, zahirən canlandırır.

Ustaddan pedaqoji fəaliyyəti barəsində sual olunduqda "Yetişdirməm olmayıb... Əgər olsaydı, onlara zülm edərdim. Çünki bir musiqini bu gün bir cür, sabah isə başqa cür çalırdım. Bir gündə 10-12 saat məşğul olurdumsa, yenə də azdır, - deyirdim. Mənim tələbələrim olmayıb, amma mənim lent yazılarıma baxıb mənim kimi çalırlar. Kimsə deyib ki, əsl müəllim odur ki, o dərs demədən tələbələri olsun. Mənimki bu deyimə bənzəyir..." [3]. Həqiqətən də ustadın yetirmələri olmayıb, lakin, o öz ifasından ilhamlanan neçə-neçə gənc nəslin kamança musiqi alətinə olan marağının qaynağıdır. Habil ifası əsrlərlə varislik yolu ilə qan yaddaşımıza hopan zəngin irsin təcəssümüdür.

XX əsrdə mahir kaman ustad sənətkarları muğam ifaçılıq sənətində əvəzsiz iz qoymuşdur. Habil Əliyev, Elman Bədəlov, Tələt Bakıxanov, Ədalət Vəzirov, Şəfiqə Eyvazova, Fəxrəddin Dadaşov, Ağacəbrayıl Abasəliyev, Mirnazim Əsədullayev, Munis Şərifov, Elşən Mansurov, Elnur Əhmədov, İsmayıl Həmidov, Toğrul Əsədullayev kimi sənətkarlar kamança musiqi alətində muğam ifaçılıq ənənələrinin sirlərini dinləyici arenasına çatdırmışlar.

Sənətkar peşəkar fəaliyyəti ilə xalqa ruhunu maarifləndiridiyi üçün 1964-cü ildə "Əməkdar artist", 1978-ci il 11 yanvar tarixində isə "Xalq artisti", 28 may 1997-ci ildə "Şöhrət" ordeni, 19 oktyabr 2007-ci ildə isə "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Ustad dünyanın Amerika, Almaniya, Fransa, İngiltərə, Hindistan, Pakistan, İran, Misir, Tunis, Suriya, və bir sıra başqa ölkələrində qastrol səfərlərində olmuş, Azərbaycan musiqi mədəniyyətini layiqincə təmsil etmiş, milli musiqi alətimiz olan kamançanı dünya arenasına təqdim etmişidir.

Təsadüfi deyil ki, mədəniyyətimizə, milli musiqimizə, musiqi alətlərimizə olan qayğı və diqqət, onun daim qorunması dövlətin qarşısında öndə duran prioritet istiqamətlərdəndir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti UNESCO-nun və İSESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın dəstəyi ilə, 2017-ci ilin dekabr ayının 7-də Koreya Respublikasının Jeju adasında keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında Azərbaycan Respublikasının və İran İslam Respublikasının birgə təqdim etdiyi "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti" UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Respublikada kamança simli musiqi alətinin təbliği, tədrisinin inkişaf etdirilməsi və istedadlı uşaq və gənclərin aşkarlanması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 2016-ci ilin aprel-may ayları tarixində Habil Əliyev adına gənc kamança ifaçılarının respublika müsabiqəsi, 2018-ci ildə isə "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti" UNESCO-nun

Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi münasibətilə Habil Əliyev adına gənc ifaçılarının II Respublika müsabiqəsi keçirilmişdir. Qeyd olunan müsabiqələrin keçirilməsində əsas məqsəd, kamança ifaçılığının təbliği, respublikada kamança ixtisası üzrə musiqi təhsilinin inkişaf etdirilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların dəstəklənməsi, eləcə də milli musiqi mədəniyyətimizin əvəzsiz xidməti olan, məşhur kamança ustadı Habil Əliyevin xatirəsinin əbədiləşdirilməsi olmuşdur.

Araşdırmanın yekunu olaraq qeyd edək ki, ustad, kamançaya milli nəfəs, milli ruh qatmaqla onu Azərbaycan musiqi aləti olaraq dünyaya çatdırdı. Sənətkar öz ifası ilə sübut etdi ki, kamança musiqi alətində təkcə bəstəkar əsərləri deyil, eləcə də muğamlarımızın solo ifası mükəmməl səslənir. O, kamança musiqi alətini rekonstruksiya etməklə, bu alətin tembr akustik imkanlarını genişləndirərək yeni çalarlar bəxş etdi. Eyni zamanda, bu aləti təkcə üçlükdə, ansamblda, orkestrdə müşayiətçi alət kimi deyil dünya arenasına solo alət kimi tanıtdı. Sadalananlar muğam ifaçılıq ənənəsinin, simli musiqi alətlərimizin yad təsirlərdən qorunmasında atılan ən ümdə addımlardandır. Cari vaxtda Habil sənəti yolu, onun əsrlərdən bu günümüzə qədər varislik yolu ilə nəsildən-nəslə ötürülən muğam ifaçılığı gənc musiqiçilər üçün əsl məktəbdir.

**ƏDƏBİYYAT:**

1. Bayramlı Y.Z. Azərbaycan simli musiqi alətləri milli mədəni ənənənin tərkib hissəsi kimi. Fəlsəfə doktoru dissertasiya işi. Bakı, 2014, 145 s.
2. Bayramlı Y.Z. Kamança yaylı simli musiqi aləti ənənə və müasirlik rakursunda. // “Musiqi dünyası” jurnalı № 2 (59), 2014, s. 100-102
3. Daşdəmirli Ə. Mən kamançaya borclu qalmamışam. // Azərbaycan müəllimi. 2011. 11 noyabr. s.12-13. URL:http://anl.az/down/meqale/az_muellimi/2011/noyabr/211748.htm
4. Manafova C. Firəngiz Əlizadənin “Habilsayağı” əsərində muğamdan istifadə prinsipləri. // “Mədəni həyat” 2013-12 s. 63-65
5. Ol Ə. Kaman əfsanəsi. H. Əliyev haqqında. B.: Aspoliqraf, 2012, 160 s.
6. Rəhimli İ.Ə. Habil Kaman (Sənətdə keçən ömür). B.: İşıq, 1987, 112 s.
7. Xəlilzadə F. Möcüzəli təranələr dünyası. // “Azərbaycan”, 2012 14 iyun, s.6
8. URL: http://www.anl.az/down/meqale/azerbaycan/2012/iyun/424.htm
9. Zöhrabov R.F. Azərbaycan muğamları. B.: Təhsil, 2013, 336 s.

**SAYTOQRAFİYA:**

10. Habil Əliyev: Ermənidən kamança dərsi almışam. URL: https://kulis.az/news/6786
11. Səxavət Məmmədov, Habil Əliyev “Segah” muğamı
12. URL: https://www.youtube.com/watch?v=crZeiI9nb2Y
13. Habil Əliyev “Segah”, “Apardı Sellər Saranı”
14. URL: https://www.youtube.com/watch?v=3EN6FIOWWH8
15. Habil Əliyev “Segah”,
16. URL: https://www.youtube.com/watch?v=RYx0bAYdoMQ\

17. Habil Əliyev “Segah”
18. URL: https://www.youtube.com/watch?v=UKOWlKFm4XU
19. İMSLP Category: Aliyev, Habil. URL:https://imslp.org/wiki/Category: Aliyev,_Habil


**Егана БАЙРАМЛЫ**
Доктор философии по искусствоведению,
Старший сотрудник отдела «Мугамоведения»
Института Архетектуры и Искусства НАНА

## О РОЛИ ГАБИЛЯ АЛИЕВА В РАЗВИТИИ ИСПОЛНИТЕЛЬСКОГО ИС-СКУСТВА НА КЯМАНЧЕ В АЗЕРБАЙДЖАНЕ

***Резюме**: В представленной статье исследуется особая исполнительская традиция народного артиста Азербайджанской Республики, орденоносца «Шохрат» и «Истиглал», виртуозного кяманчиста Габиля Алиева. Между тем, подчеркивается особенность конструкции самого инструмента кяманчи мастера и его важная роль в исполнении мугама.*

***Ключевые слова:** Габил Алиев, мугам, традиция исполнения мугама, струнный музыкальный инструмент кяманча*

**Yegane BAYRAMLI**
PhD in Arts Studies
Institute of Architecture and Arts of ANAS
Senior researcher of Mugam Studies Depratment

## TOWARDS THE ROLE OF HABIL ALIYEV IN THE DEVELOPMENT OF THE KAMANCHA PERFORMANCE IN AZERBAIJAN

***Summary:** Azerbaijan Republic People’s Artist, “Shohret” and “Istiqlal” order bearer masterly kamancha player Habil Aliyev’s special performance tradition has been investigated in the presented article. Meanwhile, the speciality of the master’s kamancha instrument and its importance in mugam performance has also been covered.*

***Keywords:** Habil Aliyev, mugam, mugam performance tradition, kamancha stringed musical instrument*

**Rəyçilər:** sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevil Fərhadova;
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əfsanə Babayeva